# Dünya teatr peşəkarları paytaxtımızda

Artıq neçə ildir ki, respublikamızın beynəlxalq əhəmiyyətli nüfuzlu tədbirlərə uğurla ev sahibliyi etməsi xoş bir ənənəyə çevrilib. Fərəhli haldır ki, gerçəkləşdirilən layihələr yalnız aktuallığına, keyfiyyətli icrasına deyil, həm də bu toplantılara qoşulan əcnəbi qonaqların sayının getdikcə daha da artmasına görə fərqlənir. Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası və Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə bu yaxınlarda keçirilən III Beynəlxalq Teatr Konfransı da bu mənada istisnalıq təşkil etmir.

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramına əsasən təşkil olunan forum müasir dünyada teatr qarşısında duran vacib mövzuya həsr edilmişdir: "Teatr sənətinin multikulturalizm-universal dəyərlər sistemində yeri". Konfransa ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Kanada, CAR, Hollandiya, Almaniya, Yunanıstan, Avstraliya, İrlandiya, Rusiya, İspaniya, Mərakeş, Kuba, Ukrayna, Polşa, Türkiyə, Estoniya, Gürcüstan, Bolqarıstan, Hindistan - ümumilikdə 40-dan çox ölkədən 110 nəfərədək tanınmış mütəxəssislər, teatr tənqidçiləri, rejissorlar, teatr rəssamları, xoreoqraf və dramaturqlar qatılmışlar.

Tədbirin açılışından öncə iştirakçılar Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarı önünə gül dəstələri qoymuşlar. Sonra onlar Şəhidlər xiyabanına gedərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsini yad etmişlər.

■

Azərbaycanın hökumət və dövlət rəsmiləri, millət vəkilləri, xarici ölkələrin diplomatik korpus təmsilçiləri, mədəniyyət, incəsənət xadimləri və çoxsaylı media mənsublarının qoşulduğu açılış mərasimində ilk olaraq I və II Beynəlxalq Teatr Konfransı barədə videomaterial nümayiş etdirilmişdir.

Toplantıda təbrik nitqi ilə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayev bu ənənəvi tədbirin yenidən teatr peşəkarlarını bir araya gətirməsindən məmnunluğunu ifadə etmişdir: "Konfrans dünya teatr aləmində, eləcə də ölkəmizin mədəni həyatında dəyərli bir hadisədir və təbii ki, yaradıcı ictimaiyyət tərəfindən maraqla izlənilir. İnanıram ki, xoş bir ənənəyə çevrilən beynəlxalq tədbir çərçivəsində görkəmli teatr biliciləri əldə olunmuş yaradıcı uğurlara nəzər salacaq, qabaqcıl təcrübələri bölüşəcək, səhnə sənətinin müasir və aktual estetik problemlərini elmi-nəzəri və yaradıcılıq kontekstində dərindən araşdıracaqlar.

Əvvəlki iki konfransın ümumi proseslərə təsiri, eyni zamanda 140 illik peşəkar ənənələrə sahib olan Azərbaycan teatr sənətinə əhəmiyyətli diqqət və marağı nəzərə alaraq deməliyəm ki, teatr bilicilərinin Bakı görüşü uzun illər davam edəcək. Çünki teatr Azərbaycanda estetik və mənəvi missiya daşımaqla geniş kütlələrə nüfuz etməyi bacaran ən önəmli incəsənət növlərindən biridir. Təbii ki, bu konfrans dövlətimizin mədəni inteqrasiya, multikulturalizm, tolerantlıq kimi qlobal dəyərlərin inkişafına həssas münasibətin əyani təzahürüdür..."






Mərasimdə dünyanın tanınmış teatr mütəxəssislərinin toplaşdığını deyən nazir sənət adamlarının məram və məqsədinin yaradıcı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq çərçivəsində çağdaş teatr problemlərinin həllinə yardımçı olmaq və dünya teatr səhnəsində növbəti inkişaf istiqamətlərini müəyyənləşdirmək olduğunu diqqətə çatdırmışdır.

Azərbaycanda teatr sənətinin zəngin tarixindən də söz açan natiq hazırda ölkədə 26 dövlət, bələdiyyə, özəl teatrın fəaliyyət göstərdiyini bildirmişdir. Son illər Azərbaycanda yeni teatr təsisatlarının yaradılmasına xüsusi diqqət yetirildiyini qeyd edən Ə.Qarayev bu sırada "Üns" yaradıcılıq səhnəsini xüsusi vurğulamışdır.

Nazir bildirmişdir ki, Azərbaycan Beynəlxalq Teatr İnstitutu, Kukla, Uşaq və Gənclər, Musiqili teatrların beynəlxalq assosiasiyalarında ləyaqətlə təmsil olunur.

Heydər Əliyevin teatr sənətinə daim böyük məhəbbət bəslədiyini vurğulayan Ə.Qarayev milli mədəniyyətimizin müasir inkişafının onun adı ilə bağlı olduğunu bir daha xatırlatmışdır: "Bu gün həmin siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir, teatr sənətinin yüksəlişinə xidmət edən mühüm dövlət sənədləri qəbul olunur".

Azərbaycanda qaynar mədəni həyat yaşandığını söyləyən Əbülfəs Qarayev ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bilavasitə təşəbbüsü və rəhbərliyi ilə keçirilən beynəlxalq tədbirlərin Azərbaycanı dünyanın böyük mədəniyyət mərkəzlərindən birinə çevirdiyini xüsusi qeyd etmişdir.

Nazir işğal altında olan Azərbaycan torpaqlarında məhv edilmiş mədəniyyət abidələri və ocaqları barədə də danışaraq, bu dağıdıcı proseslərin teatr sənətimizdən də yan keçmədiyini diqqətə çatdırmış, qaçqın həyatı yaşayan, əmlakı talan edilən teatrlarımızın hazırkı vəziyyəti barədə məlumat vermişdir.

■

Toplantıda çıxış edən Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və di-



ni məsələlər üzrə dövlət müşaviri Kamal Abdullayev III Bakı Beynəlxalq Teatr Konfransının mövzusunun aktuallığına diqqət çəkmişdir. Vurğulamışdır ki, bu gün həqiqətən də Azərbaycan multikultural bir məkana çevrilib.

Multikulturalizm anlayışını həm bəşəri, həm də milli dəyərlərin eyni vaxtda mövcud olması kimi səciyyələndirən Kamal Abdullayev bunu ən gözəl və əyani surətdə həyata keçirən məkanın məhz teatr olduğunu bildirmişdir.

Azərbaycanın teatr sənəti nümayəndələri ilə sıx dostluq münasibətləri qurduğunu söyləyən Beynəlxalq Kukla Teatrları Assosiasiyasının (UNİMA) baş katibi Jak Trüdo isə çıxışında Bakı konfransının əhəmiyyətindən danışmışdır. UNİMA-nın müxtəlif ölkələrdəki milli mərkəzlərinin nümayəndələrinin burada bir araya gəldiyini deyən qonaq bildirmişdir ki, konfransda teatr sənəti qarşısında ümumi çağırışları, həyata keçirə biləcəyimiz layihələri müzakirə edəcəyik.

Müzakirə olunacaq məsələlərin çağdaş teatrın inkişafı, yenilənməsi baxımından hamımız üçün faydalı olacağına inandığını söyləmişdir.

Uşaq və Gənclər Teatrları Beynəlxalq Assosiasiyasının (ASSİTEJ) prezidenti İvet Hardi də konfransda multikulturalizmlə bağlı zəngin fikir mübadiləsinin aparılacağına ümid bəslədiyini bildirmiş, müzakirələrin dünya teatr prosesinə müsbət təsir göstərəcəyini vurğulamışdır.

Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasının baş katibi Mişel Vais isə Bakıya növbəti səfərindən məmnunluğunu dilə gətirmişdir. Təmsil etdiyi təşkilat barədə məlumat verən qonaq assosiasiyanın 60-dan çox ölkədə fəaliyyət göstərdiyini və qurumun tədbirlərində Azərbaycanın da yaxından iştirak etdiyini bildirmişdir.

Beynəlxalq Teatr Rəssamları, Memarları və Texniki İşçiləri Təşkilatının prezidenti Luis Yansen konfransda rəhbərlik etdiyi qurumla bağlı təqdimatların olacağını diqqətə çatdırmış, bu kimi toplantıların yaradıcı mübadilə üçün müstəsna əhəmiyyət daşıdığını diqqətə çatdırmışdır.

Beynəlxalq Teatr Tədqiqatçıları Federasiyası idarə heyətinin üzvü Boris Daussa-Pastor





çıxışına ölkəmiz haqqında xoş sözlərlə başlamış, Azərbaycanın həyata keçirdiyi beynəlxalq teatr layihələrində iştirakdan qürur duyduğunu dilə gətirmişdir. Bu tədbirlərin birgə layihələrin reallaşmasına öz töhfəsini verəcəyinə inamını ifadə etmişdir...

Bu ovqat çıxışlardan sonra gerçəkləşdirilən bölmə iclaslarında da öz dolğun ifadəsini tapmış, konfransın işinə qatılan müxtəlif ölkələrin mədəniyyət xadimləri, peşəkar sənətçilər müasir teatrın aktual problemlərindən söhbət açmış, fikirlərini bölüşmüş, təcrübə mübadiləsinə cəhd göstərmişlər...

■

Bağlanış mərasimində çıxış edən mədəniyyət və turizm nazirinin müavini Ədalət Vəliyev iki gün ərzində aparılan müzakirələrin əhəmiyyətindən söz açmışdır. Azərbaycan teatrının inkişaf yolundan, zəngin ənənələrindən danışan nazir müavini milli peşəkar teatrımızın 1873-cü ildə yarandığını, 2006-cı ildən sonra teatr sənətinin yeni intibah dövrünü yaşadığını bildirmişdir.

"Həmin ildə postsovet məkanında ilk dəfə Azərbaycanda "Teatr və teatr fəaliyyəti haqqında" qanun qəbul olunub. Sonralar isə "Azərbaycan teatr sənətinin inkişaf etdirilməsi haqqında" ölkə Prezidentinin sərəncamının imzalanması, "Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramının qəbul olunması bu sahənin inkişafına əhəmiyyətli təsir göstərib. Arxada qalan səkkiz il müddətində Azərbaycan teatrı beynəlxalq teatr təşkilatlarında uğurla təmsil olunur, bu təşkilatların Bakıda illik toplantıları keçirilir".

Onillik Dövlət Proqramının Azərbaycan teatrının inkişafını hərtərəfli istiqamətləndirən sənəd olduğunu bildirən natiq onun icrası və cari nəticələrini də qonaqların diqqətinə çatdırmışdır. Azərbaycanda 26 dövlət, 1 bələdiyyə, 1 antepriz, 5 özəl teatrın olduğunu bildirən Ə.Vəliyev özəl teatrlardan savayı bütün teatrların dövlətin tam dotasiyasında olduğunu və bunun teatrın yaşaması üçün vacib amil olduğunu vurğulamışdır.

Nəzərə çatdırılmışdır ki, bu illər ərzində ölkədə 9 teatrın binası əsaslı şəkildə yenidən qurulmuş və onların hər biri dünya standartları-




na tam cavab verir. 4 teatr binası təmir olunmuş, binasız 5 teatra müvafiq yer ayrılmışdır. Üç yeni teatr binasının inşası ilə bağlı ölkə başçısı müvafiq sərəncam imzalalamışdır.

2006-cı ildən bəri teatrlarda 800-dən artıq yeni tamaşa səhnəyə qoyulmuş və onlardan təxminən 200-ü dövlət sifarişi yolu ilə hazırlanmışdır. Bu məqsədlə 28 ölkədən rejissorlar, rəssamlar, xoreoqraflar dəvət olunmuşlar. Teatrlarımız 30-dək ölkədə qastrol səfərində, eləcə də 23 beynəlxalq festivalda uğurla iştirak etmişlər. Bu zaman kəsiyində Azərbaycan teatrı ilə bağlı 50-dək kitab, eləcə də "Azərbaycan teatr antologiyası" çap olunmuş, "Azərbaycan teatr ensiklopediyası" üzərində iş isə davam edir.

Azərbaycan teatrlarının son illər bütün irimiqyaslı beynəlxalq qurumlarda təmsil olunduğunu bildirən Ə.Vəliyev bu prosesin davam edəcəyini, tezliklə ölkəmizin Teatr Rəssamları, Texniki İşçilər və Memarların Beynəlxalq Təşkilatına (OİSTAT) üzv olacağını söyləmişdir.

Mədəniyyətimizin inkişafı və dünyada təbliği istiqamətində görülən işlərdən söz açan nazir müavini Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən irimiqyaslı layihələrin bu sahəyə əvəzsiz töhfələr verdiyini bildirmişdir.

O, Azərbaycanda multikultural mühitin möhkəm təməllərə əsaslandığını və ölkəmizdə başqa xalqların dilinə, mədəniyyətinə eyni qayğı ilə yanaşıldığını, rus, ləzgi və gürcü teatrlarının da fəaliyyət göstərdiyini vurğulamışdır: "Bu zalda oturan, eləcə də mədəniyyətə xidmət edən minlərlə insan yer üzündə sülhün, bərabərliyin, əmin-amanlığın elçiləridir. Gəlin, birlikdə dilimizdən, dinimizdən asılı olmayaraq, bu missiyanı böyük sevgi ilə yerinə yetirək".

**Ə.Vəliyev çıxışının sonunda hər kəsi yenidən Bakıya, növbəti konfransa dəvət etmiş, tədbir iştirakçılarını iki il sonra şəhərimizdə salamlamaqdan şərəf duyacağını söyləmişdir...**

• Y.ARAPLI